19 (1325) 16-22 may 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİMİZ UĞURLA İNKİŞAF EDİR”



Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Çin Xalq Respublikasının Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavini, Şanxay Əməkdaşlıq Təşkilatının Mehriban Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsinin sədri Şen Yueyuenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən deyib.

Dövlətimizin başçısı əlaqələrimizin dostluq, qarşılıqlı anlaşma və dəstək prinsiplərinə əsaslandığını qeyd edib.

Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşlərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu görüşləri dostluq münasibətlərimizin nümayişi kimi dəyərləndirib və Si Cinpinlə növbəti görüşü məmnuniyyətlə gözlədiyini deyib.

Şen Yueyue Çinin Azərbaycan xalqının öz inkişaf yolu ilə bağlı etdiyi seçimini və Azərbaycanın Cənub-Cənub xətti üzrə qlobal iqlim dəyişiklikləri ilə bağlı fəal beynəlxalq əməkdaşlığını dəstəklədiyini vurğulayıb. O, dünyada Azərbaycanın nüfuzunun daim artdığını deyərək bildirib ki, bu, ölkəmizin yaxın dostu və etibarlı tərəfdaşı kimi Çini sevindirir.

Qonaq COP29-un Azərbaycanda keçirilməsi münasibətilə də təbriklərini çatdırıb və bu çərçivədə əməkdaşlıq məsələlərinə toxunub.

Söhbət zamanı vurğulanıb ki, Azərbaycan Qlobal Cənubun tərkib hissəsidir və bu xüsusda Qoşulmama Hərəkatı çərçivəsində bu ölkələrin maraqlarını müdafiə edib. Həmçinin COP29 çərçivəsində də Azərbaycan Qlobal Cənub ölkələrinin maraqlarının təmsil olunmasına öz səylərini əsirgəməyəcək.

## “ŞUŞA QƏHRƏMANLIĞIN, ZƏFƏRİN VƏ SÜLHÜN RƏMZİDİR”



“Şuşaya gələn hər bir insan əyani şəkildə görür ki, burada Azərbaycan ruhu var. Şuşa işğal, əsarət dövründə əyilmədi”.

Bu barədə Prezident İlham Əliyev “Xarıbülbül” VII Beynəlxalq Musiqi Festivalında çıxışında bildirib.

Şuşanın şəhər döyüşləri nəticəsində azad edilməsinin tariximizin parlaq səhifəsi olduğunu bir daha vurğulayan dövlətimizin başçısı deyib: ***“Şuşa mədəniyyət ocağı kimi tanınsa da, hazırda, eyni zamanda qəhrəmanlıq rəmzidir, zəfər rəmzidir və sülhün rəmzidir”.***

## “FƏXR EDİRİK Kİ, PREZİDENT İLHAM ƏLİYEV BİZİM PLANLARIMIZI DƏSTƏKLƏYİR”

“ICESCO fəxr edir ki, Prezident İlham Əliyev onun planlarını və Azərbaycanla bağlı proqramlarını dəstəkləyir və təşkilat da öz növbəsində ona öz vəfa borcunu yerinə yetirir”.

Bu sözləri ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik “Xarıbülbül” VII Beynəlxalq Musiqi Festivalında çıxışında söyləyib.

Salim bin Məhəmməd əl-Malik bildirib ki, Azərbaycanın zəkalı oğulları ICESCO-da fəaliyyət göstərir, orada təcrübəli ekspertlər kimi çalışırlar.



## ŞUŞADA ÜÇÜNCÜ YAŞAYIŞ KOMPLEKSİNİN TƏMƏLİ QOYULDU



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada inşa ediləcək üçüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Şuşa rayonunda Prezidentin xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və birinci xanıma yeni yaşayış kompleksi barədə məlumat verib.

Bildirilib ki, Şuşa şəhərində üçüncü yaşayış kompleksinin layihəsi çərçivəsində 17 yaşayış binasının inşası nəzərdə tutulub. Kompleks ümumilikdə 487 mənzildən ibarət olacaq. Hazırda binanın layihələndirmə işləri başa çatdırılıb. Tikinti işlərinə bu ilin yayında başlanılması planlaşdırılır.

Prezident İlham Əliyev Şuşada üçüncü yaşayış kompleksinin təməlini qoyub.

## ƏHMƏDBƏYLİ-FÜZULİ-ŞUŞA AVTOMOBİL YOLUNUN TİKİNTİSİ SÜRƏTLƏ DAVAM ETDİRİLİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda aparılan işlərlə tanış olub, bu yolda inşa edilmiş birinci tunelin açılışında iştirak edib.

Bildirilib ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi sürətlə davam etdirilir.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə, işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirir.

Sonra dövlətimizin başçısı ümumi uzunluğu 6747 metr olan birinci tunelin açılışını edib.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Üzeyir Hacıbəylinin ev-muzeyində və Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri ilə tanış olublar, “Şirin su” hamamının və Mamayı məscidinin bərpadan sonra açılışlarında iştirak ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Xankəndi-Şuşa-Laçın avtomobil yolunda görülən işlərlə tanış olub, Şuşa rayonunun Turşsu qəsəbəsinin təməlini qoyub.

* * *

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak edib və şəhərə köçmüş ilk sakinlərlə görüşüblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunun Sus kəndində görülmüş işlərlə tanış olub, kəndə köçmüş sakinlərlə görüşüb, Laçın rayonunda “AzərEnerji” ASC-nin “Zabux” və “Qarıqışlaq” Kiçik Su Elektrik stansiyalarının (KSES) açılışlarında iştirak edib.



## “ŞUŞANIN TARİXİ SİMASININ BƏRPASI İSTİQAMƏTİNDƏ FƏAL İŞLƏR GEDİR”

Bu fikirləri Prezident İlham Əliyev “Xarıbülbül” VII Beynəlxalq Musiqi Festivalında çıxışında səsləndirib.

Şuşanın bir çox tarixi və dini abidələrinin işğal dövründə işğalçılar tərəfindən tamamilə dağıdıldığını vurğulayan dövlətimizin başçısı deyib ki, hazırda dörd məscid yenidən qurulub, digər məscidlərdə təmir-bərpa işləri aparılır.

## “ƏMİNƏM Kİ, BUNDAN SONRA AZƏRBAYCAN TORPAQLARINDA DAİM SÜLH OLACAQ”

Bu sözləri Prezident İlham Əliyev “Xarıbülbül” VII Beynəlxalq Musiqi Festivalında çıxışı zamanı söyləyib.

“Arzum budur, əminəm, bütün Azərbaycan xalqının arzusu budur ki, qoy, heç vaxt bu səma altında bir daha top səsləri eşidilməsin. Qoy, bundan sonra burada ancaq musiqi sədaları səslənsin”, - deyə dövlətimizin başçısı qeyd edib.

# Baş nazir Əli Əsədov Belarusun Baş nazirinin müavini ilə görüşüb



Mayın 14-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Belarus Respublikasının Baş nazirinin müavini İqor Petrişenko ilə görüşüb.
Görüşdə Belarus Prezidenti Aleksandr Lukoşenkonun Azərbaycana dövlət səfərinin əhəmiyyəti qeyd olunub, səfərin iki ölkə arasında dostluq münasibətlərinin möhkəmləndirilməsinə yeni təkan verəcəyinə əminlik ifadə olunub.
Bundan əlavə, ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının cari ilin iyun ayında Minskdə keçiriləcək 14-cü iclasının vacibliyi vurğulanıb.
Görüşdə iki ölkə arasında müxtəlif sahələrdə münasibətlərin inkişafından məmnunluq ifadə olunub, qarşılıqlı maraq doğuran istiqamətlər üzrə gələcək qarşılıqlı əlaqələrin perspektivləri müzakirə olunub.

# “Qarabağ İtaliya şirkətləri üçün istehsalatın yaradılması baxımından əlverişlidir”

“Azərbaycanın işğaldan azad olunmuş əraziləri İtaliya şirkətləri üçün istehsalatın yaradılması baxımından əlverişlidir. Burada münbit biznes mühiti yaradılıb”.
Bu barədə Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktorunun müavini Tural Hacılı Bakıda keçirilən “Azərbaycan və İtaliya - daha yaxşı qida istehsalı naminə” tədbirdə deyib.
O bildirib ki, bugünkü görüş gələcəkdə münasibətlərin daha da genişləndirilməsinə təsir edəcək.




*“İtaliya Azərbaycan üçün ən başlıca ticari partnyordur. Bizim əsas məhsullarımız neft-qazdır. Missiyamız və əsas vəzifəmiz isə ticari münasibətlərimizin gücləndirilməsidir. Kənd təsərrüfatı sektorunun inkişafı və dəyər zənciri bizim üçün önəmli hədəflərdən biridir. Azərbaycan hökuməti fərqli təşviq mexanizmləri təklif edir ki, bunlardan əsası Sahibkarlığın İnkişafı Fondudur. Bu fond əlverişli güzəştli kreditlərin verilməsi ilə məşğuldur. İnanıram ki, İtaliya avadanlığının Azərbaycanda tətbiq olunmasını təmin edəcək”*, - deyə T.Hacılı qeyd edib.

# “Azərbaycanın kənd təsərrüfatında İtaliya texnikaları böyük çəkiyə malikdir”



“Bu gün İtaliyanın kənd təsərrüfatı texnikaları sahəsində ölkəmizdə aktiv iştirak etməsi çox vacibdir. Biz kənd təsərrüfatında müasir texnologiyalardan istifadə edilməsində maraqlıyıq”.
Bunu Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə Bakıda keçirilən “Azərbaycan və İtaliya - daha yaxşı qida istehsalı naminə” adlı tədbirdə çıxışı zamanı deyib.
O bildirib ki, Azərbaycanda kənd təsərrüfatı sahəsində, əsasən MDB ölkələrinin texnikalarından istifadə olunur. Son dövrlərdə isə Avropa, əsasən İtaliya mənşəli texnikaların idxal göstəriciləri böyük çəkiyə malikdir.
*“Bu, çox yaxşı göstəricidir ki, bizim kənd təsərrüfatı sahəsinin texnika parkı İtaliyanın texniki avadanlığı əsasında formalaşır. Soyuducu anbar avadanlıqları, quşçuluq və heyvandarlıq avadanlıqlarının 40 faizi subsidiyalaşır. Yeni innovativ texnologiyalar da subsidiyalaşdırılan texnikalar siyahısına daxildir. Biz daha çox yaşıl texnologiyaların fermerlər tərəfindən tətbiqini dəstəkləyirik. Eyni zamanda, heyvandarlıqda da Avropa mənşəli cins heyvanların xüsusi çəkisini artırmaq niyyətindəyik. Bütün bunlar elektron sistem üzərindən həyata keçirilir. Kənd təsərrüfatının təchizat bazarı liberaldır. İstənilən İtaliya şirkətinin burada müəssisə qurub, bu təchizatı həyata keçirməsinə şərait var”*, - deyə F.Fikrətzadə qeyd edib.

# Belarus Azərbaycanla kənd təsərrüfatı sahəsində əməkdaşlığa önəm verir



Kənd təsərrüfatı naziri Məcnun Məmmədov Azərbaycanda səfərdə olan Belarusun kənd təsərrüfatı və ərzaq naziri Sergey Bartoşun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.
Kənd təsərrüfatı naziri Məcnun Məmmədov aqrar sahədə ölkəmizdə aparılan islahatlardan söz açıb, Azərbaycanda aqrar inkişaf strategiyasının əsas istiqamətləri, həyata keçirilən innovativ layihələr barədə məlumat verib.
Nazir Məcnun Məmmədov Qafqaz regionunda ən böyük beynəlxalq kənd təsərrüfatı sərgisi olan “Caspian Agro” sərgisində Belarusun milli pavilyonla təmsil olunması və bu ölkənin 40 şirkətinin sərgidə iştirakından məmnunluğunu ifadə edib. Görüş zamanı bu sərgilərin aqrar sahədə fəaliyyət göstərən iş adamları və fermerlərin yeni məhsul və texnologiyalarla tanış olmasına şərait yaratdığı, beynəlxalq sərgilərdə qarşılıqlı fəal iştirakın iki ölkənin işgüzar dairələri arasında əməkdaşlığı daha da gücləndirəcəyi vurğulanıb.
Tərəflər Azərbaycan ilə Belarus arasında aqrar sahədə əməkdaşlıq, kənd təsərrüfatı və qida məhsullarının ticarət dövriyyəsinin artırılması, kənd təsərrüfatı sahəsində ən müasir texnologiyaların transferi, aqrar sektorda elmi-tədqiqat və təhsil sahələrində təcrübə proqramlarının həyata keçirilməsi məsələlərini müzakirə ediblər.
Görüşdə işğaldan azad olunan ərazilərdə kənd təsərrüfatının bərpası və inkişafı istiqamətində Azərbaycanın dost ölkələrlə əməkdaşlığa hazır olduğu, bu sahədə Belarusun təcrübəsindən yararlanmağın mümkünlüyü qeyd olunub.

# “Azərbaycanda həyata keçirilən islahatlar kənd təsərrüfatının inkişafını gücləndirir”



Bunu kənd təsərrüfatı naziri Məcnun Məmmədov Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı “Caspian Agro” və 29-cu Azərbaycan Beynəlxalq Qida Sənayesi “InterFood Azerbaijan” sərgilərinin açılış mərasimində deyib.
O qeyd edib ki, Azərbaycanda həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatının inkişafını gücləndirir, bu məqsədlə dövlət tərəfindən əhəmiyyətli dəstək tədbirləri həyata keçirilir, fermerlərin kənd təsərrüfatı alətlərinə əlçatanlığı təmin edilir, o cümlədən aqrar sığortanın tətbiq dairəsi genişləndirilir.
*“Əminəm ki, fermerlərimiz sərginin yaratdığı bu imkanlardan geniş yararlanaraq innovativ kənd təsərrüfatı texnikalarından, müasir suvarma sistemləri, dəqiq kənd təsərrüfatı həlləri və düzgün aqrotexniki qulluq vasitələrindən geniş istifadə etməklə Azərbaycanda aqrar sahənin davamlı inkişafına öz töhfəsini vermiş olacaqlar”*, - deyə nazir qeyd edib.

# “Azərbaycan və İtaliya – daha yaxşı qida istehsalı naminə” mövzusunda tədbir keçirilib



Bakıda İtaliya Ticarət Agentliyi (ITA) və Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) birgə təşkilatçılığı ilə ixracın təşviqi və xarici investisiyaların cəlb edilməsi məqsədilə “Azərbaycan və İtaliya – daha yaxşı qida istehsalı naminə” mövzusunda tədbir keçirilib.
Tədbirdə aidiyyəti dövlət qurumları, yerli hakimiyyət orqanları, beynəlxalq maliyyə institutlarının nümayəndələri ilə yanaşı kənd təsərrüfatı və qida sənayesi sektorunda fəaliyyət göstərən İtaliyanın 12 şirkəti və Azərbaycanın 100-dək iş adamı iştirak ediblər.
Tədbirdə Azərbaycan iqtisadiyyatının diversifikasiyası, beynəlxalq standartlar, kənd təsərrüfatı və sənaye sektorlarında istehsalın artırılması və təkmilləşdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb, ölkəmizdə sözügedən sahələrin imkanlarından maksimum effektiv yararlanmağın vacibliyindən, təcrübə mübadiləsinin əhəmiyyətindən danışılıb. Tədbir sahibkarlar arasında B2B formatda görüşlərlə davam edib.

# Çinlə yaşıl enerji əməkdaşlığının inkişafı müzakirə edilib



Energetika naziri Pərviz Şahbazovla “China Energy Engineering Group Co.Ltd” şirkətinin sədri Song Hailiangın rəhbərlik etdiyi və “China Energy International Group Co. Ltd” şirkətinin sədri Lyu Zexiangin da daxil olduğu nümayəndə heyəti arasında görüş keçirilib.
Energetika Nazirliyindən bildirilib ki, görüşdə bərpa olunan enerji üzrə çoxistiqamətli əməkdaşlıq əlaqələrinin inkişafına və COP29 çərçivəsində Çin şirkətləri ilə birgə fəaliyyətə dair müzakirələr aparılıb. Çində və qlobal miqyasda energetika və infrastruktur sənayeləri üçün sistematik, inteqrasiya olunmuş, hərtərəfli inkişaf planları və xidmətləri təqdim edən “China Energy Engineering Group Co.Ltd” şirkətinin həyata keçirdiyi layihələr barədə məlumat verilib. Çin şirkətlərinin ölkəmizdə nəhəng bərpa olunan enerji potensialının reallaşdırılması üzrə genişmiqyaslı fəaliyyət sahələrində iştiraka maraq göstərdikləri diqqətə çatdırılıb.
Yaşıl enerji dəhlizləri və interkonnektorlarının yaradılması, yaşıl enerjinin ixracı, yaşıl hidrogen və yaşıl ammonyakın istehsalı-nəqli, həmçinin enerji saxlanc sistemləri üzrə əməkdaşlıq imkanları dəyərləndirilib. Həmçinin Energetika Nazirliyi ilə “China Gezhouba Group Overseas Investment” şirkəti arasında imzalanmış 2 QVt gücündə bərpa olunan enerji layihələrinin həyata keçirilməsinə dair Anlaşma Memorandumundan irəli gələn məsələlər müzakirə edilib. 60 MVt və 100 MVt gücündə günəş elektrik stansiyalarının tikintisi ilə bağlı görülən tədbirlər və növbəti addımlar nəzərdən keçirilib.
Söhbət zamanı işçi qrupun yaradılması ilə potensial əməkdaşlıq istiqamətləri üzrə təkliflərin dəyərləndirilməsi və nəticədə müvafiq layihələrlə bağlı əməkdaşlıq edilməsi üçün qarşılıqlı fəaliyyətin gücləndirilməsi razılaşdırılıb.

# KOBİA İtaliya şirkətləri ilə birgə müəssisələrin yaradılmasına dəstək göstərməyə hazırdır

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) olaraq İtaliya şirkətləri il birgə müəssisələrin yaradılmasına dəstək göstərməyə hazırıq.
Bu barədə KOBİA katibliyinin sədr müavini Əmir Şirinbəyli Bakıda keçirilən “Azərbaycan və İtaliya - daha yaxşı qida istehsalı naminə” tədbirdə çıxışı zamanı deyib.
O bildirib ki, KOBİA İtaliya şirkətlərinə yerli tərəfdaşlıq barədə məlumatlarda kömək göstərə bilər.
**“KOBİA mayın 15-də Bakıda keçiriləcək 17-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi (“CaspianAgro 2024”) və 29-cu Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisində (“InterFood Azerbaijan 2024”) iştirak edəcək. Mən bütün İtaliya şirkətlərini bu sərgidə iştirak etməyə dəvət edirəm”**, - deyə Ə.Şirinbəyli qeyd edib.

# Xariclə ticarət balansında ilk rübdə $2.48 mlrd. qalıq yaranıb



2024-cü ilin yanvar-mart aylarında ölkənin xarici ticarət dövriyyəsi 9 milyard 905.5 milyon ABŞ dolları təşkil edib.
Ticarət dövriyyəsinin 6 milyard 193.9 milyon dollarını ölkədən ixrac olunmuş məhsulların, 3 milyard 711.6 milyon dollarını isə idxal məhsullarının dəyəri təşkil edib. Nəticədə 2 milyard 482.3 milyon dollar məbləğində müsbət saldo yaranmışdır.Öncəki ayda ticarət balansındakı qalıq 1 milyard 535milyon dollar idi.
2023-cü ilin yanvar-mart ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 20.0 faiz, real ifadədə 13.9 faiz, o cümlədən idxal 20.2 faiz, ixrac isə 10.8 faiz azalıb.
2024-cü ilin yanvar-mart aylarında qeyri neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 26.2 faiz, real ifadədə 33.3 faiz azalaraq 673.7 milyon dollar təşkil etmişdir.
2024-cü ilin yanvar-mart aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 149 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 93 ölkəyə məhsul ixrac olunmuş, 144 ölkədən idxal olunmuşdur.

# İnternet bankçılıq əməliyyatlarının həcmi 18 % artıb

"Bu ilin I rübündə Azərbaycanda internet bankçılıq əməliyyatlarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 18%-dək artaraq 59 milyard manatı ötüb". Bunu Azərbaycan Mərkəzi Bankı sədrinin I müavini Rəşad Orucov deyib.
Onun sözlərinə görə, mobil bankçılıq xidmətlərinin həcmi 2 dəfə artaraq 15 milyard manat təşkil edib.
Ümumilikdə, I rübdə cari hesablarda aparılan müştəri köçürmələrinin say üzrə 93%-i, həcm üzrə isə 75%-i elektron bankçılıqla həyata keçirilib.

# AYİB ötən il Azərbaycanda sərmayə yatırdığı sahələri açıqlayıb

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) keçən il müxtəlif sahələrə 13 milyard avro məbləğində sərmayə yatırıb.
Bu barədə AYİB-in nümayəndəsi Elmin İbrahimov Bakıda keçirilən "Azərbaycan və İtaliya - daha yaxşı qida istehsalı naminə" tədbirində çıxışı zamanı deyib.
O qeyd edib ki, AYİB 40 ölkədə fəaliyyət göstərir. İndiyədək bank 7 min layihəyə sərmayə qoyub.
*"AYİB Azərbaycanda 30 ildir fəaliyyət göstərir və proaktiv olaraq Azərbaycan hökumətinin tərəfdaşıdır. Bizim özəl sektorda da təşəbbüslərimiz var. Ötən illər ərzində böyük investisiyalara imza atılıb. Enerji stansiyalarının qurulması, logistika, kiçik və orta bizneslər üçün sərmayə yatırılıb. Düşünürəm ki, bugünkü tədbir gələcək əməkdaşlığımız üçün təməl olacaq. Biz istənilən layihəni nəzərdən keçirməyə hazırıq"*, - deyə E.İbrahimov qeyd edib.

# Bu ilin dörd ayında Azərbaycanda neft hasilatı 6 faiz azalıb

Cari ilin yanvar-aprel aylarında ölkədə 9,6 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,9 faiz azdır.
Energetika Nazirliyindən bildirilib ki, neft hasilatının 5,5 milyon tonu "Azəri-Çıraq-Günəşli"-nin, 1,4 milyon tonu (kondensat) "Şahdəniz"in, 0,2 milyon tonu (kondensat) "Abşeron" yatağının payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 2,5 milyon ton təşkil edib.
Bu dövrdə 7,9 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun 6,9 milyon tonu konsorsiumun, 1 milyon tonu isə SOCAR-ın payına düşüb.
"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən cari il mayın 1-dək 636,2 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. "Azəri-Çıraq-Günəşli"dən 590,2 milyon ton neft, "Şahdəniz"dən isə 46 milyon tona yaxın kondensat çıxarılıb. Bunun təqribən 634,2 milyon tonu ixraca nəql edilib.
Bu ilin yanvar-aprel aylarında ölkədə neftin emalı ötən illə eyni səviyyədə, yəni 2,2 milyon tona yaxın təşkil edib.

# Konteyner daşımalarında rekord həcm qeydə alınıb



Qazaxıstanın "Kazmortransflot" milli gəmiçilik şirkətinin ("KazMunayQaz"ın törəmə müəssisəsi) konteyner daşıyıcıları bu il Xəzər dənizindən Aktau-Bakı marşrutu üzrə 100 min tondan çox yük nəql edib.
AZƏRTAC "KazMunayQaz" şirkətinin məlumatına istinadla xəbər verir ki, orta göstərici 2500 TEU (iyirmi futlu ekvivalent) olmaqla, aprel ayında rekord sayda – 2850 TEU (təxminən 35 min ton yük) konteyner daşımaları qeydə alınıb.
"Kazmortransflot"un konteyner daşıyıcıları hər ay orta hesabla bu istiqamətdə 8-9 dairəvi reys həyata keçirir, Asiya ilə Avropa arasında əlaqəni təmin edirlər.
Qazaxıstan Respublikasının "KazMunayQaz" milli neft-qaz şirkəti 7 tankerə, 2 quru yükdaşıyan və 3 konteynerdaşıyan gəmiyə sahibdir.

# "Maliyyə bazarında daha sərt tələblər yeni oyunçuların daxil olmasını çətinləşdirir"



"Azərbaycanda maliyyə bazarında daha sərt tələblərin müəyyən olunması bir sıra hallarda bazara yeni oyunçuların daxil olma prosesini çətinləşdirir".
Bunu Azərbaycan Mərkəzi Bankının sədrinin I müavini Rəşad Orucov Bakıda keçirilən Fintex Sammitində deyib.
Onun sözlərinə görə, təcrübə göstərir ki, fintex innovasiyaları qlobal maliyyə sisteminin mühüm tərkib hissəsidir və onların inkişafı yalnızca startapların deyil, bütövlükdə maliyyə xidmətləri təchizatçılarının fəaliyyətini genişləndirməkdədir: *"Bu məqsədlə Mərkəzi Bank tərəfindən xüsusi tənzimləmə rejimi formalaşdırılıb. Xüsusi tənzimləmə rejimi maliyyə bazarlarında innovativ maliyyə məhsullarının məhdud çərçivədə və Mərkəzi Bankın nəzarəti altında sınaqdan keçirilməsi üzrə tədbirləri özündə ehtiva edən qaydalar toplusudur"*.
R.Orucov bildirib ki, AMB-nin əsas hədəflərindən biri bərabər bazar şərtlərinin təmin olunması ilə bank olmayan ödəniş xidməti təchizatçıları, habelə fintexlərin fəaliyyətini dəstəkləməkdir: **"Tənzimləyici qurumlar bazarda sabitliyin təmin olunması və müştəri hüquqlarının qorunmasını prioritet hesab edərək, normativ hüquqi çərçivəni də məhz bu prinsiplər nəzərə alınmaqla hazırlayır. Xüsusi tənzimləmə rejimi təkcə ödəniş sahəsi üzrə deyil, bütövlükdə maliyyə sektoru üzrə innovativ məhsul və xidmətlərin banklar və fintexlər tərəfindən sınaqdan keçirilməsinə imkan verməklə yanaşı, eləcə də uğursuz nəticələrin qarşısının alınmasına və maliyyə sisteminin ümumi təhlükəsizliyinin təmin edilməsinə şərait yaradır"**.

# "Azərbaycanda nağdsız ödənişlərin həcmi 10 dəfəyə yaxın artıb"



"Son 5 ildə Azərbaycanda nağdsız ödənişlərin həcmi 10 dəfəyə yaxın artıb".
Bunu Azərbaycan Fintex Assosiasiyasının İdarə Heyətinin sədri Ruslan Talıbov Bakıda keçirilən Fintex Sammitində deyib.
Onun sözlərinə görə, son 4 ildə bir pos-terminal üzrə ödənişlər 4 dəfə artaraq təxminən 10 min manata çatıb: *"Sektorda getdikcə dəyişən müştəri davranışları və bununla bağlı tələblər fintexlərin qarşısına yeni hədəflər gətirir"*.
O qeyd edib ki, ölkəmizdə ötən dövr daha çox lisenziyalaşma və qanunvericiliyin təkmilləşdirilməsi, ödəniş sistemləri haqqında qanunun qəbulu, eləcə də müxtəlif prosedur və qaydaların qəbulu ilə xarakterik olub. Ötən dövrü sektor oyunçuları özlərinin nizamnamə kapitalı və qanunvericiliyin digər tələblərini həyata keçirməyə sərf ediblər.

# Azərbaycan iqtisadiyyatı 4 faizdən çox böyüyüb

Cari ilin yanvar-aprel aylarında ölkədə 38 milyard 181,9 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal olunub.
Dövlət Statistika Komitəsindən bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,1 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 7,7 faiz artıb.
ÜDM istehsalının 40,3 faizi sənaye, 9,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,0 faizi tikinti, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 20,0 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 10,1 faizini təşkil edib.
Əhalinin hər nəfərinə düşən ÜDM 3748,1 manata bərabər olub.




# AÇG və "Şahdəniz"dən hasil edilən qazın həcmi açıqlanıb

Cari ilin yanvar-aprel ayları ərzində respublikada təbii qaz hasilatı 3 faiz artaraq 16,7 milyard kubmetr olub.
Energetika Nazirliyindən bildirilib ki, qazın 4,4 milyard kubmetri "Azəri-Çıraq-Günəşli", 9,2 milyard kubmetri "Şahdəniz", 0,5 milyard kubmetri "Abşeron", 2,6 milyard kubmetri SOCAR üzrə hasil olunub. Ötən ilin müvafiq dövrünə nisbətən 0,5 milyard kubmetr artımla qaz hasil edilib.
4 ay ərzində xaricə qaz satışı 8,5 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz çoxdur. Avropaya 4,2 milyard kubmetr, Türkiyəyə 3,2 milyard kubmetr, Gürcüstana isə 1,1 milyard kubmetr qaz satılıb. Türkiyəyə TANAP-la bu müddətdə 1,8 milyard kubmetr qaz nəql olunub.
"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən cari il mayın 1-dək "Azəri-Çıraq-Günəşli"dən 220,7 milyard kubmetr, "Şahdəniz"dən isə 218,3 milyard kubmetr qaz hasil edilib. Bu dövrdə "Şahdəniz" yatağından hasil edilən qazın 28,9 faizi, yəni 155,2 milyard kubmetri ixraca nəql edilib.

# Azərbaycan bu il hasil etdiyi qazın 51 faizini ixrac edib

Bu ilin yanvar-aprel aylarında neft-kondensat hasilatı 9,6 milyon ton, ixraca nəql edilən həcmlər isə 7,9 milyon ton olub.
Bu barədə energetika naziri Pərviz Şahbazov məlumat paylaşıb.
O bildirib ki, bu dövrdə 500 milyon kubmetr artımla hasil edilmiş 16,7 milyard kubmetr qazın 8,5 milyard kubmetri ixrac olunub.
*"Yanvar-aprel aylarında Avropaya 4,2 milyard kubmetr, Türkiyəyə 3,2 milyard kubmetr, Gürcüstana isə 1,1 milyard kubmetr qaz ixrac olunub. Bu dövrdə TANAP-la Türkiyəyə 1,8 milyard kubmetr qaz nəql edilib. Bu ilin 4 ayı ərzində xaricə qaz satışı ötən ilin müvafiq dövrü ilə müqayisədə təqribən 2,7 faiz çoxdur"*, - deyə nazir qeyd edib.

# "Naxçıvan sağlamlıq günləri" çərçivəsində 300-ə yaxın şəhid və qazi ailəsinin üzvlərinə tibbi-xidmət göstərilib





*4 may 2024-cü il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzi, Mərkəzi Gömrük Hospitalı, rəsmi tərəfdaş Türkiyənin Florence Nightingale Xəstəxanalar Qrupu və Naxçıvan Baş Gömrük İdarəsinin birgə təşkilatçılığı və Naxçıvan MR Səhiyyə Nazirliyinin, Naxçıvan MR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə və Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr edilmiş "Naxçıvan sağlamlıq günləri" çərçivəsində şəhid və qazi ailələrinin üzvləri üçün tibbi-sosial* xeyriyyə aksiyası keçirilib.

Naxçıxan Mərkəzi Xəstəxanasında keçirilən tədbirin açılış hissəsində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədov, Naxçıvan Baş Gömrük İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Vüqar Əliyev, Naxçıvan MR Səhiyyə Naziri səlahiyyətlərini müvəqqəti icra edən Samiq Sadıxov, Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Naziri səlahiyyətlərini müvəqqəti icra edən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirinin müavini Fərid Bağırzadə, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini, t.e.d., Əməkdar həkim, ürək-damar cərrahı Rəşad Mahmudov, TXİ rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının rəisi-baş həkim Bəxtiyar Musayev, Naxçıvan Mərkəzi Xəstəxanasının direktoru Fehruz Zehirov, Mərkəzi Gömrük Hospitalının həkimləri, tibb personalı və digər rəsmi qonaqlar iştirak ediblər.

Gün ərzində müraciət edən xüsusi qayğıya ehtiyacı olan insanlara, şəhid və qazi ailələrinin üzvlərinə kardioloji, oftalmoloji, uroloji, endokrinoloji, cərrahi, ginekoloji, dermatoloji və s. xidmətlər göstərilib, ultrasəs müayinəsi edilib, pediatrlar və uşaq cərrahları tərəfindən uşaqlara müxtəlif növ tibbi prosedurlar həyata keçirilib.

Mərkəzi Gömrük Hospitalının həkimləri: ürək-damar cərrahı Rəşad Mahmudov, hospitalın rəisi-Baş həkim Bəxtiyar Musayev, Poliklinika şöbəsinin rəisi Tamilla Əliyeva, Cərrahiyyə və Orqan transplantasiyası şöbəsinin rəisi Mircəlal Kazımi, Radiologiya şöbəsinin rəisi Eldəniz Hüseynov, Ümumi cərrahiyyə şöbəsinin rəisi Namiq Novruzov, Kardiologiya şöbəsinin rəisi İlqar Tahiroğlu, Uşaq cərrahiyyəsi şöbəsinin rəisi Vüsal Cəfərov, Mama-ginekologiya şöbəsinin rəisi Təranə Bayramova, Radiologiya şöbəsinin şüa diaqnostikası üzrə həkimi Günay Əhmədova, uroloq Samir Ağalarov, endokrinoloq Naidə Novruzova, otorinolarinqoloq Elvin Əzizov, oftalmoloq Aynurə Əliyeva, nevropatoloq Mənsumə Talıbova, dermatovenereoloq Sevinc Kərimova, travmatoloq-ortoped Müseyib Əhmədov, psixiatr Gülay Məmmədzadə, pediatr-neonatoloq Minazər Abdullayeva, pediatr Şahnaz Zamanlı, terapevt Xumar Novruzova, kardioloq Rəna Mürşüdlü, Radiologiya şöbəsinin həkim-rezidenti Leyla Abdullayeva, böyük tibb bacısı Nigar Maqsudova, Florence Nightingale Xəstəxanasının həkimləri: uşaq kardioloqu Doğukan Aktaş, ginekoloq Kemine Uzel və terapevt Gülanə Muradova 300-ə yaxın şəhid və qazi ailələrinin üzvlərini ətraflı müayinə edərək, müalicələr təyin ediblər.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# "Bakı Şampan Şərabları Zavodu" ASC-nin 31 dekabr 2023-cü il tarixinə BALANS HESABATI

| | | |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| **uzunmüddətli aktivlər** | | |
| qeyri maddi aktivlər | 27500 | 27500 |
| Torpaq, tikili və avadanlıqlar | 4848031 | 4910784 |
| daşınmaz əmlaka investisiyalar | | |
| bioloji aktivlər | 72362 | 72362 |
| təbii sərvətlər | | |
| iştirak payı metodu ilə uşota alınmış investisiyalar | | |
| təxirə salınmış vergi aktivləri | 8781 | 8781 |
| uzunmüddətli debitor borcları | | |
| sair uzunmüddətli maliyyə aktivləri | | |
| sair uzunmüddətli aktivləri | | |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **4956674** | **5019427** |
| Qısamüddətli aktivlər | | |
| ehtiyatlar | | 2013385 |
| qısamüddətli debitor borcları | 96352 | 276918 |
| pul vəsaitləri və onların ekvivalenti | 35405 | 7515 |
| sair qısamüddətli maliyyə aktivləri | | |
| sair qısamüddətli aktivləri | 64420 | 105597 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **196183** | **2403415** |
| **CƏMİ AKTİVLƏR** | **5152853** | **7422842** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **Kapital** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 6768718 | 6768718 |
| emisiyya gəliri | | |
| Geri alınmış kapital(səhmlər) | | |
| kapital ehtiyatları | | |
| bölüşdürülməmiş mənfəət(ödənilmiş zərər) | -2293355 | -141112 |
| **CƏMİ KAPİTAL** | **4475364** | **6627607** |
| Uzunmüdətli öhdəliklər | | |
| uzunmüdəttli faiz xərcləri yaradan öhdəliklər | | |
| uzunmüdəttli qiymətləndirilmiş öhdəliklər | | |
| təxirə salınmış vergi öhdəlikləri | | |
| uzunmüdətli kreditor borcları | | |
| sair uzunmüddətli öhdəliklər | | |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| qısamüddətli öhdəliklər | | |
| qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 28084 | 20778 |
| qısamüddətli kreditor borcları | 649405 | 774452 |
| sair qısamüddətli öhdəliklər | | |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **677489** | **795230** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **677489** | **795230** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **5152853** | **7422837** |

| **Maliyyə gəlirləri və xərcləri** | **01.01.2023 31.12.2023** | **01.01.2022 31.12.2022** |
|---|---|---|
| Əsas əməliyyat gəliri | | |
| satışın maya dəyəri | | |
| **Ümumi mənfəət** | | |
| sair əməliyyat gəlirləri | 301209 | 226439 |
| komersiya xərcləri | | |
| inzibati xərclər | 70223 | 60670 |
| sair əməliyyat xərcləri | 188462 | 215172 |
| fəaliyyətin dayandırılmasından mənfəətlər (zərərlər) | 2152234 | |
| **Əməliyyat mənfəəti(zərəri)** | **2109710** | **-49403** |
| maliyyə gəliri | | |
| maliyyə xərcləri | | |
| **vergitutmadan əvvəl mənfəət və ya zərər** | **2109710** | **-49403** |
| mənfəət vergisi | | |
| **adi mənfəət və ya zərər** | **2109710** | **-49403** |
| Hesabat dövründə xalis mənfəət(zərər) | **2109710** | **-49403** |
| hər səhn üzrə mənfəət | | |
| azaldılmş hər bir səhm üzrə mənfəət | | |

**Xarakterinə görə təsnifləşdirməni istifadə etməklə əməliyyat xərcləri haqqında informasiya**

| | | |
|---|---|---|
| istifadə edilmiş material ehtiyatları | -2013385 | 17546 |
| işçi heyəti qzrə xərclər | 67919 | 38870 |
| amortizasiya xərcləri | | |
| **Sair əməliyyat xərcləri** | 188462 | 215172 |
| **Cəmi əməliyyat xərcləri** | **256381** | **271587** |

| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | **01.01.2023 31.12.2023** | **01.01.2022 31.12.2022** |
|---|---|---|
| hesabat dövründə xalis mənfəət və ya zərər | -2127652 | |
| aşagıdakı maddələr üzrə baş verən dəyişiliklər | | |
| ehtiyatlar | 2013385 | |
| ehtiyat debitor borcları və gələcək dövrün xərcləri | 180566 | |
| əməliyyat kreditor borcları və hesablaşmalar | -125047 | 17055 |
| əməliyyat fəaliyyətinə aid fövqaladə pul vəsaitlərinin hərəkəti | | |
| ödənilmiş (qytarılmış) mənfəət vergisi | | |
| **əməliyyat fəaliyyətinə aid fövqaladə pul vəsaitlərinin hərəkəti** | **58748** | **17055** |

| **pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti** | **01.01.2023 31.12.2023** | **01.01.2022 31.12.2022** |
|---|---|---|
| bank overdafları şıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə məşləgi | -15424 | -1621 |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması vəsaitlərin məzənnələrinin dəyişməsinin təsiri | | |
| bank overdafları şıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə məşləgi | 43324 | 15424 |

**KH.J.A AUDİT-CONSULTİNQ XİDMƏTİ" MMC**

**Baku, Azerbaijan, Babak ave. 95, apt. 122; mobile: (+99450) 394-66-02**
**xaladdin-aliyev@mail.ru VÖEN;1604961411**
**İCAZƏ A/T 256; 25 noyabr 2022-ci il**

**«Bakı Şampan Şərabları » Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və Rəhbərliyinə**

**auditorun hesabatı**

**Rəy** ReX3Dv9nY9

Mən "Bakı Şampan Şərabları" ASC-nin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının " Etika məcəlləsinin" (İESBA məcəlləsi) tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun olaraq yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimə daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edir və peşəkar şəffaflıq nümayiş etdirirəm. Mən həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqiliyini qiymətləndirirəm.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatlarmdakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrin auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

Mən Direktora digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.

Mən həmçinin Direktora bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm.

Direktorun nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verməninin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandınlmş şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatımda təsvir edirəm.

Hesabat 07.05.2024-cü il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri "**Bakı Şampan Şərabları " ASC–nin** rəhbərliyinə təqdim edilir, ikincisi isə auditor təşkilatında saxlanılır.

**"KH.J.A Audit-Consultinq Xidməti"MMC**
**direktor- auditor:** **X.C.Əliyev**

**M.Y**
**07 may 2024-cü il**

# Çinin daha bir şəhərində Azərbaycan Ticarət Evi açılır

Azərbaycanın Çində fəaliyyət göstərən ticarət evlərinin sayı artırılır.

İxracın və İnvestisiyaların Təşviqi Agentliyindən (AZPROMO) bildirilib ki, mayın 15-də Çinin Nankin şəhərində İqtisadiyyat Nazirliyinin dəstəyi, ölkəmizin Çindəki ticarət nümayəndəliyinin təşkilatçılığı ilə Azərbaycan Ticarət Evinin açılış mərasimi keçiriləcək.

Qeyd edək ki, hazırda Azərbaycanın Çinin Çindao, Canciaciye, Sian, Çendu və Pekin şəhərlərində ticarət evləri, Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 şərab evi fəaliyyət göstərir.

# Bakcell-in yeni məhsulu – "F1 Star" artıq satışda




Bakcell Azərbaycanda mövcud olan istənilən sürətdən daha sürətli yeni məhsulunu - "F1 Star" fiber internet paketini təqdim edir.

"Ölkənin ən sürətli mobil operatoru" şüarı ilə bütün ölkəyə bənzərsiz internet sürəti təmin edən Bakcell, bu dəfə yeniliyi evlərə gətirir. Özündə mesh Wi-Fi ruterləri birləşdirən məhsul, evin sahəsindən və mərtəbəsindən asılı olmayaraq, hər küncündə eyni yüksək sürət performansını göstərəcək.

1 Gigabit sürət imkanına malik F1 Star məhsulu 14 may 2024-cü il tarixindən etibarən abunəçilərin ehtiyaclarını qarşılamaq üçün hazırlanmış müxtəlif planları ilə satışa çıxarılıb. Bakcell-in təqdim etdiyi bu eksklüziv məhsul ilə abunəçiləri dəyərli anlarını kəsintisiz və sürətli ev interneti vasitəsilə yaşaya biləcəklər.

*"F1 Star-ın ən sürətli sabit internet olması ilə yanaşı, Bakcell-in mükəmməlliyə, innovasiyaya və Azərbaycan xalqına sadiqliyini təmsil edir. Hədəfimiz yeni məhsulla yanaşı, bütün Azərbaycan ərazisində, xüsusən də Azərbaycan üçün olduqca önəmli və dəyərli anlarla zəngin olan Qarabağda ən sürətli sabit şəbəkəni təmin edərək, dəyər təkliflərini artırmaqdır. Yeniliklərimiz bununla bitmir, yaxın gələcəkdə abunəçilər üçün faydalı bir neçə məhsul seriyası təqdim edəcəyik"*, - deyə Bakcell-in Baş İcraçı Direktoru Klaus Müller bildirib.

Şirkət haqqında: Bakcell 3 milyondan çox abunəçini ölkənin ən sürətli mobil şəbəkəsi ilə təmin edir. Şirkət NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.




**Azəri Light markalı neftin bir barelinin 8 – 15 may tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500